**SADİQ FİRUDİN OĞLU NAĞIYEV**

ELMİ REDAKTOR: OQTAY ƏFƏNDİYEV
tarix elmləri doktoru

# QIZILBAŞLIQ HAQQINDA

**Bakı - 1997**

N 55 (az)

N 55 Sadiq Nağıyev

“Qızılbaşlıq haqqında”, Bakı, “Əbiləv, Zeynalov nəşriyyatı” - 1997. 32 səh.

ISBN 5-87459-138-9 © “Əbiləv, Zeynalov nəşriyyatı” 1997

# GİRİŞ

XV əsrin ikinci yarısında meydana çıxmış olan Qızılbaşlıq hərəkatı Azərbaycan, İran, İraq və şərqi Anadoluda yaşayan türkdilli tayfaların tarixində yeni bir səhifə açdı.

Dini baxımdan Qızılbaşlıq İslamda inqilab yaratdı. Bu təriqətin mənsubları şiəliyi sufiliyin müxtəlif cərəyanları ilə zənginləşdirərək şiəliyə dayanan böyük bir Qızılbaş dövləti qurdular.

Bu dövləti qurmuş olan Şah İsmayılın amalı ədalətli bir dövlət qurmaq, burada yaşayan türkdilli tayfaları uzun illər məruz qalmış olduqları yadelli basqınlardan və tayfalar arası çəkişmələrdən qurtarmaq və onlar üçün gözəl güzəran təmin etmək olmuşdur.

Amma tarixi şərait belə gətirdi ki, bu dövlət qərbdən Orta əsrlərin ən qüdrətli dövləti olmuş Osmanlı imperiyasının, şərqdən isə Özbəklərin Şeybanilər dövlətinin ardı-arası kəsilməyən hücumlarına məruz qalıb mövcudluğunu qorumaq naminə müharibələr aparmış oldu. Tarixin qismət etmiş olduğu qonşu dövlətlərin sünni ruhanilərinin fanatizmi, dini düşmənçilik siyasəti yeritməsi, öz dövlətlərini müharibələrə sövq etməsi tarixin axarını dəyişdirmiş oldu. XVI əsr bu üç türk dövlətinin bitməyən müharibələr əsri oldu.

Qızılbaşlıq haqqında bir çox əsərlərin olmasına baxmayaraq yazımızda məqsəd bu hərəkatın mənşəyinə, yaranmasına, günümüzdəki mövcudluğuna müasir şərait baxımından qısa bir nəzər salmaqdır.

# I Fəsil

## Kimdir qızılbaşlar?

Tariximizdən bizə məlum olduğuna görə Qızılbaşlıq Azərbaycanda yaranmış və Qızılbaş dövləti əvvəlcə Azərbaycanda qurulmuş, sonra isə indiki İran, İraq, Şərqi Anadolu, Ermənistan və Gürcüstanı əhatə etmişdir.

Qızılbaşlığın mənası haqqında müxtəlif fikirlər mövcuddur. Türkiyə alimi Enver Behnan Şapolyo yazır ki, Məhəmməd peyğəmbər Uhud müharibəsində Məkkəlilər tərəfindən yaralanır, başından axan qanlar onun başını qızıl bir baş halına gətirir və bundan sonra Həzrəti Əli başında qırmızı tac ilə müharibələrdə iştirak etmişdir. Bu rəvayətə görə qızılbaşlar bu adı burdan almışlar. Digər bir rəvayətə görə də Şah İsmayıl İkinci Bəyazid ilə bir müqavilə bağlamış, öz əsgərlərini Anadoludan Suriyaya keçirmiş ki, bu əsgərlərin də başında qırmızı təkkələr (incə materialdan olan baş örtüyü) varmış. Bundan sonra şiələrə qızılbaş deməyə başladılar. Bu səbəblə Anadolu Ələviləri də qızılbaş adını almışlardır.

Şapolyoya görə bu rəvayətlər həqiqətə uyğun deyildir. Əsil həqiqət budur ki, Ələviliyi qəbul edən Türkmənlərin müsəlmanlıqdan öncə dinləri Şamanlıq olmuşdur. Türk şamanları başlarına qırmızı bir külah (konus şəkilli qədim baş örtüyü) geyərlərdi. Dini ayinləri onlar idarə edərlərdi. Türkmənlərin din böyüklərinə Dədə yaxud seyid dədə deyərlərdi. Bu dədələr başlarına qırmızı külah geyərək Ələvilərin dərnəklərini idarə edərlərdi. Bu səbəbə görə Anadolu Ələvilərinə Qızılbaş demək adət oldu.[1]

Türk alimi Faruk Sümerin fikrincə XIII və XIV əsrlərdə Anadoludakı köçəri türklər qızıl börk (yeniçərilərin[2] baş örtüyü) geyirmişlər. Buna görə də Səfəvi mürid və əsgərlərinin geydikləri külah və tacların qızıl rəngdə olmasının bununla əlaqəsi vardır.[3]

Türk alimi Fuat Köprülü Qızılbaşları kənd Bəktaşiləri adlandırmışdır.[4] Digər türk müəllifi Abdulqədir Sezgin Qızılbaş sözünün əski türklərin sarı qırmızılı baş ortüyü geyməsindən qaynaqlandığını və kənd Bəktaşiləri mənasında da istifadə olunduğunu bildirir.[5]

Alman alimi Brokelmana görə isə atasının ölümündən sonra şeyx Heydər öz təriqətinə yeni bir şəkil verdi ki, bu da öz ifadəsini yeni bir baş örtüyündə tapmışdır. Bu qırmızı başlıq 12 imama işarət edən 12 dilimli bir Heydəri baş örtüyü idi.[6]

Səfəviyyə cəmiyyəti müridlərinin və tərəfdarlarının şeyx Heydərin zamanında 12 qırmızı zolaqlı baş örtüyü geyməyə başladıqlarını və bundan sonra da onların Qızılbaş adlandırıldıqlarını İ.P.Petruşevski[7] də , S.Triminqem də qeyd edir[8].

Qızılbaşların Azərbaycan və şərqi Anadoluda yaşamış türkdilli tayfaların birliyindən yaranmış olması fikri daha doğrudur. Qızılbaşlar əvvəlcə şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı (Qaradağ sufiləri), sonralar isə bayat, qaramanlı, baharlı, alpaut, ərəşli, qazaxlı və başqa türkdilli tayfaları birləşdirirdi. Qızılbaşlar 12 şiə imamı şərəfinə 12 qırmızı zolaqlı çalma bağladıqlarına görə belə adlanırdılar. Talışlar qızılbaşların tərkibində yeganə irandilli xalq idi.[9]

Qızılbaşlıq sufilik (təsəvvüf) adlanan müsəlman mistikliyi və sufilikdən doğmuş hürufi şiə təriqəti ilə sıx bağlı olduğu üçün şiəliyin inkişaf mərhələlərinə diqqət yetirmək vacibdir.

Şiəlik şiələrin təlimi deməkdir. Şiə sözü ərəbcədir və kimə isə tabe olmaq, tərəfdar olmaq mənasındadır. Şiələr Əli ibn Əbu Talibi və onun nəslini Məhəmməd peyğəmbərin yeganə qanuni varisləri hesab edən müxtəlif cərəyanların və təriqətlərin ümumi adıdır.[10]

X əsrdə İslamı qəbul edən oğuz türkləri XI əsrdə Orta Asiyadan Ərəb yarımadasına qədər uzanan Səlcuqilər dövlətini qurdular. Bu dövrlərdə təsəvvüf cərəyanı türklər arasında geniş vüsət almağa başladı.

Təsəvvüf sözü ərəbcə olub müsəlman mistikliyinə, sufizmə deyilir. Bu söz sufi, sufiyyə (sufizm) terminləri ilə bağlı olub suf (yun) sözündən yaranmışdır. Zahidlər və dərvişlərin paltarları yundan toxunurdu. Sufi üçün həyatın başlıca mənası Allaha yaxınlaşmaq, Allahı dərk etməkdir.[11]

İslam alimi, mövlanə Xalidi Bağdadi yazırdı: "Təsəvvüf əhlinə, yəni səfilərə görə, Həqiqi var olan ancaq Allahu təaladır. Allahu təala, mütləq varlıq, mütləq yaxşılıq, mütləq gözəllik sahibidir. O gizli bir xəzinə ikən, özünü tanıtmaq istədi. Dünyanı və dünyada yaşayanları yaratmasının səbəbi budur. Allahu təala, heç bir məxluqa hülul etməmişdir. (Yəni onların içində deyildir). Heç bir insan, ilah ola bilməz. Allahu təala insanın sifətlərini öz sifətlərinə bənzəyən bir surətdə yaratmışdır".[12]

Xalidi Bağdadi təssvvüfün məqsədi haqqında belə yazırdı: "Təsəvvüfün qayəsi, insani Marifəti ilahiyyəyə qovuşdurmaqdır. Yəni Allahu təalanın sifətlərini tanımaqdır. Onun zatını, yəni özünü tanımaq mümkün deyildir. Peyğəmbərimiz "səlləlləhu əleyhi və səlləm", (Allahu təalanın zatını düşünməyin. Onun nemətlərini düşünün) buyurmuşdur. Yəni, Onun özünün necə olduğunu deyil, sifətlərini və insanlara verdiyi nemətləri düşünməlidir".[13]

Sufilik geniş vüsət aldıqca türklər yaşayan ərazilərdə pirlər meydana gəlməyə başladı ki, bunlar da təsəvvüfü yayan ideoloji mərkəzlərə çevrildilər. İlk məlum olan pirlərdən Arslan Baba, Mənsur Ata, Tac Xoca, Zəngi Ata, Hakim Ata, Pir Dədə və sairlərini göstərmək olar. Eyni zamanda da Mövləvilik, Yəsəvilik, Bəktaşilik, Hürufilik və başqa sünni və şiə qəriqətləri meydana çıxdı.[14]

Bəktaşiyyə türk sufi cəmiyyətinin adıdır. Təriqətin adı onun banisi Hacı Bəktaşi Vəlinin adından götürülmüşdür. O. 1243-cü ildə Xorasanın Nişapur şəhərində anadan olmuşdur. Uşaqlığını Nişapurda keçirmiş, boyüdüyü zaman Türk mütəsəvvüfü Əhməd Yəsəvinin xəlifələrindən Xorasanlı Şeyx Loğmandan təsəvvüf dərsi almışdır. Sonralar Hacı Bəktaş Vəli Nişapurdan Məkkəyə getmiş, Hacı olmuş və 1281-ci ildə Anadoluya gəlmiş, əvvəlcə Əskişəhir ətrafındakı Seyidqazidə, sonra isə Qırşehirdə yerləşmişdir.[15]

XII əsrin birinci yarısında Orta Asiyanın Yəsi (indiki Türkistan) şəhərində Əhməd Yəsəvinin qurmuş olduğu ilk türk sufi "Yəsəviyyə" cəmiyyətinin, onun hər bir türkə aydın olan "Divani Hikmət" əsərinin və bu əsərin onun müridləri vasitəsilə kiçik Asiyada yayılması[16] və yuxarıda qeyd olunduğu kimi Yəsəvi xəlifələrindən birinin Hacı Bəktaşi Vəlinin mürşüdü olması "Bəktaşiyyə" cəmiyyətinin və onun təsəvvüf təliminin formalaşmasında öz təsirini göstərmişdir. Ancaq "Yəsəviyyə" sünni cəmiyyəti idisə, artıq "Bəktaşiyyə" şiə cəmiyyəti olaraq tanınmışdı. Bəktaşilər arasında imam Əliyə sitayiş, 12 imama pərəstiş yayılmışdır. Bəktaşilikdə imamlar arasında İmam Cəfəri Sadiq xüsusilə ayrılır. Bəktaşilərin yeniçərilərlə sıx əlaqələri olmuşdur.

Bəktaşiliyin və Yəsəviliyin oxşar cəhətləri haqqında fransız alimi əslən Azərbaycanlı İren Melikoffa bildirir ki, hər iki təriqətin mərasimlərində ərəbcə və

farsca yox, Türkcəyə üstünlük verilir, dini şerlər, nəfəslər oxunur, qadınlar toplantılara qəbul olunur. Hər ikisində də quşa çevrilmə inamı var; Bəktaşilikdə - göyərçinə, Yəsəvilikdə - durnaya[17].

Digər şiə cəmiyyəti olan "Hürufilik" Azərbaycanın Naxçıvan bölgəsində, Astrabadda XIV əsrin sonlarında Şeyx Fəzlullah Nəimi tərəfindən yaradılmışdı. Rəvayətə görə Teymurləng onu Şirvana sürgün etmiş və burada o, Teymurun oğlu Miranşah tərəfindən qətlə yetirilmişdir. Buna görə Hürufilər Teymurilərə qarşı nifrət bəsləyirdilər. Fəzlullah bir sıra əsərlər yazmış, onlardan ən məşhuru "Cavidani Kəbirdir". Hürufilərin təlimi əsasən "Mehram-namə" əsərində öz əksini tapmışdır.

Hürufilərə görə insanda ilahiyyət öz əksini tapır, xüsusən onun üzündə, çünki insan Allahın əsasında (timsalında) yaranıb, həm kainatın hərəkəti, həm də bəşər tarixi dövrü hərəkətdən başqa bir şey deyil. Hər dövrənin başında Adəm peyda olur və sonu məhşərlə bitir. İlahiyyət insanlarda təkamül edən peyğəmbərlik şəklində təzaqqür edir. Peyğəmbərlərin sonuncusu Məhəmməd olub: müqəddəslərdən birincisi Əli, sonuncusu - 11-ci şiə imamı Həsən Əsgəridir. Fəzlullah isə insan qiyafəsino girmiş allahdır. Hürufilər İsmaililərdən ərəb hərflərinin mistik mənasını götürmüşlər. (Hüruf - ərəbcə hərfin cəmidir). Hərflərdə Hürufilər insanın üzündə mistik cizgilərin işarələrini görürdülər. Onlar sufizmin güclü təsiri altında idilər.[18]

Hürufilik Azərbaycan, İran, Türkiyə və Suriyada geniş yayılmışdı. XV əsrdı Hürufilərin görkəmli nümayəndələri İmadəddin Nəsimi və Əbdu Həsən Əli ul-Əlanın başçılığı ilə Hürufilər Türkiyə ərazisində fəaliyyət göstərmiş nə türk dilində geniş ədəbiyyat yaratmışlar. Onlar öz fikirləri ilə Bəktaşiliyi zənginləşdirmişlər. Bəktaşi ədəbiyyatının yeddi böyük şairindən üçü: Nəsimi, Yəmini və Virani açıq-aşkar Hürufi idilər.[19]

Hürufiliklə Bəktaşiliyin oxşar cəhəti də vardır. Belə ki, Bəktaşilər bəzi etitadlarını hərflərlə isbata çalışmışlar. Bununla əlaqədar olaraq bir çox nəfəslər (dini mahnılar) yaratmışlar.[20]

Daha bir maraqlı faktı qeyd etmək istəyirik ki, dahi Azərbaycan şairi Nizaminin mürşüdü 1162-ci ildə vəfat etmiş Əhi şeyxi Fərəc Zəncani olmuşdur. "Əhi" sufi cəmiyyəti də Orta Asiyada türklər arasında yaranmış və XII əsrdə Azərbaycan və Kiçik Asiyaya yayılmışdır. Sənətkarları birləşdirən bu cəmiyyətin digər sufi cəmiyyətlərindən fərqi o idi ki, əhilər zülmə və ədalətsizliyə qarşı passiv olmağı deyil, qüvvə tətbiq etməklə məzlumları müdafiə etməyi mümkün hesab edirdilər.[21] Əhilik ərəbcə "Əhiyyei Fityan", yəni gənc qardaşlar mənasındadır.

Əhilər şiə idilər. Onların piri Salmani Farsi idi. XIV əsrin əvvəllərində Əhilər Ankarada gücləndilər və qısa müddətli bir Əhi dövləti qurdular. Dövlətləri devrildikdən sonra Bəktaşilərə sığındılar. Bəktaşilərin Salmani Farsiyə hörmətləri, Sülük (təriqətə daxil olmaq) mərasimlərində belə kəmər bağlamaq adəti və başqa

bəzi adətləri Əhilərdən keçmişdir. Əhiliyin Bəktaşiliyə qatılması ilə sonuncuların şiəliyi daha da aydın şəkil almışdır.[23]

XIII əsrin ikinci yarısında Azərbaycanda, Ərdəbil şəhərində bir sufi cəmiyyəti yaranmışdı. Buranın şeyxi əsli Gilandan olan Şeyx Zahid idi. O, qızı Bibi Fatmanı müridi Səfiəddinə ərə vermişdi. Şeyx Zahid vəfat edincə cəmiyyətin şeyxi Səfiəddin olmuşdur. Rəvayəə görə, onun ulu babası Firuz adlı bir kəs XII əsrdə Ərəbistandan Azərbaycana gəlmiş və burada kök salmışdır. Onun nəslindən aşağıdakılar olmuşlar: Əvəz, Məhəmməd, Səlahəddin, Qütbəddin, Saleh, Əminəddin, Səfiəddin. Şeyx Səfiəddin 1252-ci ildə Ərdəbildə anadan olmuşdur[24]. Şeyx Səfiəddin 1334-cü ildə Ərdəbildə vəfat etdikdən sonra onun davamçıları bunlar idi; şeyx Sədrəddin Musa (1334-1392), şeyx Xoca Əli (1392-1427), şeyx İbrahim, Şeyxşah adı ilə (1427-1447), şeyx Cüneyd (1447-1460), şeyx Heydər (1460-1488), şeyx Sultan Əli (1488-1494), şeyx İsmayıl (1494-1501), sonralar isə Şah İsmayıl (1501-1524).[25]

Qızılbaşların milli mənsubluğu məsələsi barəsində bir çox fikirlər mövcuddur. Yuxarıda Şapolyonun qeyd etdiyi kimi onların ulu babası Ərəbistandan Azərbaycana köçmüş, yəni millətcə ərəbdir. Digər bir fikrə görə Ərəbistandan Azərbaycana köçmüş kürddür. Bu xüsusda Faruk Sümer yazır: “Həqiqətən bu nəslin seyidliklə heç bir əlaqəsi olmayıb. Firuz şah adlı Sincarlı bir kürdün nəslindən gəldiyi şübhəsiz bir şəkildə ortaya qoyulmuşdur. Təxmin etmək mümkün ola bilir ki, Səfiyəddin İsxaqın atası Firuz şah, Kürdlərin X əsrdə Azərbaycan və Arranda yayılmaları əsnasında Ərdəbilə gəlmiş və şəhərin yaxınlığında bir yerdə yerləşmişlər.[26] Digər türk tarixçisi Toqan da eyni fikirdə olub Səfəvilərin kürd mənşəli olduğunu təsdiqləyir.

Əhməd Kəsrəvi, S.Rəhimzadə, N.Şeybani və M.Məşkur kimi İran müəllifləri də Səfəvilərin kürd mənşəli olduqları ehtimalını irəli sürürlər.[27]

Bu barədə Bosvortun fikri heç bir anlama sığmır. O, bildirir: “Hərçənd Səfəvilər türkcə danışsalar da, çox güman ki, onlar mənşəcə kürd idilər. Bu xüsusda bizdə etibarlı məlumat yoxdur, belə ki, Səfəvilər, İranda hakimiyyətlərini möhkəmləndirdikdən sonra, öz mənşələrinə aid məlumatları bilərəkdən saxtalaşdırmağa başladılar Ancaq onların türkmən əhalinin çoxluq təşkil etdiyi Anadolu-Diyarbəkir-Azərbaycan bölgəsindəki əksər sülalər kimi dərvişlər içərisindən çıxmış olduğu və siyasi təsirə malik olduqları barəsində şübhə etmək olmur”.[28]

Başqa bir fikir də mövcuddur ki, Səfəvilər özlərini Əli nəslinə bağlayırdılar. Bu barədə Anri Masse yazır: “Səfəvilər öz müqəddəsliyi ilə şan-şöhrət qazandığı bir zamanda Xəzər dənizinə yaxın vilayətlərin birində vəfat etmiş bir zahidin nəsilləri idilər. Bu zahid Ələvilərin yeddinci imamının nəslindən idi, yəni özünü əslən ərəb hesab edirdi”[29]. Brokelman şeyx Səfiəddin barəsində “əslini cənubi Ərəbistandan köçmüş bir Əli ailəsinə bağlayan” kimi yazır.[30]

Səfəvilərin türk Azərbaycanlı olduğunun artıq sübuta ehtiyacı yoxdur. Bartoldun yazdığı kimi Səfəvilərin vətəni olan Azərbaycanda o zaman əhali türkcə danışırdı və türk dili Səfəvilər dövlətində saray və orduda əsas dil idi.[31] Bundan başqa öz şerlərini Şah İsmayıl ana dili olan türk dilində yazmış, onun vaxtında dövlət işlərində və poeziyada türk dili fars dili qarşısında üstünlük qazanmış habelə Şah İsmayıl poetik dili xalq dilinə yaxınlaşdırmışdır.[32]

Bu barədə İran tarixçisi Nəsrulla Fəlsəfi yazır: "Şah İsmayıl hər bir vilayəti tutduqdan sonra ələ keçirilmiş qənimətləri, əsirləri və torpaqları qızılbaş sərkərdələri arasında bölüşdürürdü. Beləliklə, mənşəyi və dili etibarilə türk olan tayfalar İranın hər yerində yerli farsdilli iranlılar üzərində ağalıq etməyə başladılar. İranda imtiyazlı və qüdrətli zümrə əmələ gəldi və bütün hərbi və mülki mövqeləri, vəzifələri ələ keçirərək İran xalqını tam ixtiyarla və əzəmətlə idarə etdi. Buna görə də Səfəvilər dövründə şahı İran şahənşahı adlandırdıqlarına baxmayaraq, İran ölkəsinə Qızılbaş dövləti (Məmləkəti Qızılbaş) adı verdilər. İran sarayında türk dilində danışırdılar. Şah İsmayıl türk dilində şerlər yazırdı. Qızılbaşlar özlərini türk mənşələrinə, əsil-nəcabət və ad-sanlarına görə İranın yerli əhalisindən yüksəkdə tutur, onları həqarətlə tatlar və taciklər adlandırırdılar".[33]

Səfəvilərin kürd olmadığını təsdiqləyən fikir Şərəfxan Bidlisinin "Şərəfnamə" əsərini kürd xalqının tarixinə dair mənbə kimi incələmiş M.Şəmsi tərəfindən verilmişdir. O, bildirir ki, kürdlər sünni məzhəbindən olduqlarından Osmanlı tərəfini tutmalı idilər. Amma Osmanlı sultanlarının onlara qarşı olan mənfi münasibəti kürdləri Azərbaycanda qurulmuş Səfəvi dövlətinə üz tutmağa istiqamətləndirdi. Bu dövrdə I Şah İsmayıl Səfəvi (1501-1524-cü illər) mərkəzləşdirilmiş dövlət siyasəti aparır və bütün feodalları öz hakimiyyəti altına salırdı. O, bir neçə kürd əmirliyini işğal edib onların idarəsini Qızılbaş sərkərdələrinə tapşırdı. Bu hadisə kürd əmirlərinin narazılığına səbəb oldu.[34] Bilindiyi kimi Qızılbaş tayfa ittifaqında kürd tayfaları olmamış və əgər Şah İsmayıl millətcə kürd idisə işğal etdiyi kürd əmirliklərinə rəhbərliyə kürdləri də təyin edə bilərdi.

Bununla yanaşı Səfəvilərin mənşəyi məsələsini araşdırmış Azərbaycan alimi M.Abbaslı bildirir ki, 20 yaşında ikən özünə mürşüd seçmək üçün İranın mərkəzi vilayətlərindən olan Şiraza gedən şeyx Səfi o zamanın bir çox görkəmli İran alimləri ilə görüşmüş ki, onlar da şeyx Səfiyə "Ey piri türk" deyə müraciət ediblərmiş.[35] Bu da Səfəvilərin ulu babasının türk olduğunu isbatlayır.

Bu barədə İ.P.Petruşevski qeyd etmişdir ki, Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilərin XV əsrin ikinci yarısında ana dilləri azərbaycan dili idi və şah İsmayıl azərbaycan dilində Xətayi təxəllüsü ilə şerlər yazırdı.[36]

XI-XV əsrlərdə Kiçik Asiya, Şimali Suriya, Ermənistan, Azərbaycan və İranı əhatə edən geniş ərazidə yaşamış türk-oğuz tayfalarının bir hissəsi Qaraqoyunlu və Ağqoyunlu tayfa birləşmələrinin tərkibinə daxil idilər. Bu tayfaların dili həqiqətən Azərbaycan dili, yaxud ona yaxın türk dialektləri idi.[37]

Alman Anton Jozef Dierl yazır: "Osmanlılar 1500-cü illərə doğru Şərqi Anadolunu torpaqlarına qatmaq istədiklərində Qızılbaşlarla qarşılaşdılar. Şərqi Anadoludakı Qızılbaşlar türkcə danışan Azərbaycanın Ərdəbil təkkəsindən nəzarət edilirdi. Yəni Qızılbaşlar İran-Fars dərviş təriqətlərinə mənsub deyildirlər. Zatən ibadət dilləri türkcəydi, dini şerlərini də türkcə yazırlardı".[38]

Deməli, XIII əsrin sonlarında Anadoluda "Bəktaşiyyə" sufi-şiə cəmiyyəti, Azərbaycanda isə "Səfəviyyə" adında sufi cəmiyyəti yarandı. Səfəvilərin sufiliyini təsdiqləyən Anri Masse yazır: "...cəmiyyət nəinki İranda, həm də Kiçik Asiyada təbliğat aparırdı. Səfəvilər sufi idilər və hətta hökmdar olduqdan sonra da avropalılar onları İranın "Böyük sufiləri adlandırırdılar".[39]

"Səfəviyyə" cəmiyyəti əvvəlcə "Ərdəbiliyyə" yaxud "Zahidiyyə" adlanırdı. Cəmiyyət Ərdəbil şəhərində yerləşdiyindən və şeyxin adı Tacəddin İbrahim Zahidi olduğundan o belə adlanırdı. Səfiəddin İshaq şeyx olduqdan sonra cəmiyyət "Səfəviyyə" adını aldı. Orta əsrlərdə yaradılan təriqətlər, cərəyanlar, cəmiyyətlər və onların şöbələri çox vaxt şeyxlərinin adı ilə məşhurlaşırdı. Çünki şeyxlər çox zəngin elmə, nümünəvi həyat tərzinə sahib və xalq içərisində böyük hörməti olan şəxsiyyətlər idilər.

Səfəvilərdə sufiliyin formalaşmasında məşhur müsəlman ilahiyyatçısı və sufiliyin banilərindən sayılan Həsən əl-Bəsrinin, digər məşhur sufilərdən Həbib Əcəmi, Davud ət-Tai, Məruf əl-Kərxi, Səri əs-Səqəti, Cüneyd Bağdadi, Əbu-n-Nəcib əs-Sührəvərdi, Qütbəddin əl-Əbhəri və digərlərinin böyük rolu olmuşdur.[40]

Təriqətlər tarixi üçün çox qiymətli bir mənbə olan Xərirzadə Kəmaləddin Əfəndinin "İslam aləmində təriqətlər" əsərində "Ərdəbiliyyə", "Zahidiyyə" və "Səfəviyyə" Əbhəriyyənin şöbələri olaraq göstərilir.[41]

Fransız L. Massinyon hesab edir ki, Səfəviyyə "Sührəvərdiyyənin Azərbaycan qoludur"[42]

Ümumiyyətlə, Qızılbaşlığın təriqət silsiləsini ədəbiyyata istinadən aşağıdakı şəkildə göstərmək olar:

İmam Əli
Həsən Əl-Bəsri
Həbib Əcəmi
Davud Ət-Tai
Səri əs Səqəti
Cüneyd Bağdadi
Mümşadül Deynuri
Məhəmməd Bəkri
Vəcihədül Hadi
Ömər Bəkri
Əbu-n-Nəcib Sührəvərdi
Qütbəddin Əbhəri
Seyid Camaləddin

Tacəddin Zahid Gilani
Şeyx Səfiəddin İshaq
Şeyx Sədrəddin Musa
Şeyx Xoca Əli
Şeyx İbrahim
Şeyx Cüneyd
Şeyx Heydər
Şeyx İsmayıl

Bu da Səfəvilərin sufiliyinin dərin kökləri olduğunu isbatlayır və bunun daha dərin tədqiqata ehtiyacı vardır.

Səfəvilərin mürşidi olan şeyx İbrahim Zahidinin və Səfəvi şeyxlərinin başqa sufi təriqətlərinin formalaşmasında da rolu olmuşdur Belə ki, Orta əsrlərdə yayılmış sufi təriqətlərindən Xəlvətiliyin əsası olan Zikrullaha görə təriqətin zikirdə məqsədi dünya zövqlərindən nəfsi uzaqlaşdırmaq, daima Cənabi haqqı düşünmək, bu surətlə özünü pisliklərdən qorumaqdır. Xəlvət təsəvvüf dilində Haqq ilə gizli danışmaqdır. Lüğət mənası isə yalnızlıq və tənhalıqda olmaqdır. Xəlvətilik zikrini ilk dəfə Şeyx İbrahim Zahidi tətbiq etmiş, sonralar bütün sünni təriqətlər də onu qəbul etmişlər.[43]

Xəlvətiliyin yaradıcısı şeyx Xəlvəti olsa da, təriqətin yayılmasında böyük rol Şamaxıda anadan olub və Bakıda vəfat etmiş Azərbaycanlı şeyx Seyid Yəhya Şirvaniyə məxsusdur.[44] Böyük alim və sufi olmuş Seyid Yəhya Bakıya gəlməmişdən əvvəl Ərdəbil şeyxi Sədrəddinin ardıcıllarından olmuşdur.[45]

Bundan başqa Bayramilik təriqətinin yaradıcısı Hacı Bayram Vəlinin mürşüdü şeyx Həmiduddin gənclik illərində Ərdəbilə getmiş və Hoca Ələddin Əli Ərdəbilidən təsəvvüf elminə yiyələnmişdir.[46]

Hətta İsmət Zəki Əyyuboğlu “Təsəvvüf. Təriqətlər. Məzhəblər tarixi” kitabında Bayramilik təriqətinin silsiləsində İbrahim Zahid Gilani, Səfiəddin Ərdəbili, Xoca Əli Ərdəbili və İbrahim Ərdəbiliyə də yer ayırmışdır.[47]

“Səfəviyyə” sufi cəmiyyəti müridləri Azərbaycandan kənarda da fəaliyyət göstərirdilər. Özbək şairi Nəvainin çox hörmət bəslədiyi və özünü onun davamçılarından hesab etdiyi şəxs Şeyx Sədrəddinin müridi olmuş və onun tərəfindən Xorasana göndərilmiş Azərbaycanlı şair Qasım Ənvər olmuşdur.[48]

Səfəviliyin yayılmasında və məhşurlaşmasında əsas rol cəmiyyətə uzun müddət rəhbərlik etmiş Şeyx Sədrəddinə məxsusdur. Bu xüsusda Fəzlullah ibn Ruzbihan Xünci bildirir ki, şeyx Səfiəddinin ölümündən sonra Sədrəddinin şöhrəti hər tərəfə yayıldı və onun ardıcıllarının sayı artdı.[49]

Artıq XIV əsrin ikinci yarısında və əsasən, XV əsrdə Ərdəbil təkkəsi nəinki Azərbaycanda, həmçinin Kiçik Asiyada, Farsda, Əcəm İraqında, Gilanda, Talışda özünün çoxsaylı müridləri və ardıcıllarına malik idi.[50]

Səfəvilərin XV əsrin axırlarında sünni yaxud şiə olması barəsində də bir çox fikirlər vardır. Bu xüsusda Şapolyo yazır “Səfəvi” dövləti adını Şiə

pirlərindən Şeyx Səfiəddin Ərdəbilidən almışdı. İran şiəliyini quran bu şəxs olmuşdur.[51] Şapolyo burada şeyx Səfiəddinin şiə olduğunu təsdiqlədiyi halda Bartold Ərdəbil haqqında yazarkən bildirir ki, hələ XV əsrdə Həmdullah Qəzvini zamanında şəhərin əhalisi şafi sünni məzhəbindon idi. Deməli Səfəvilər nəslinin ulu babası şeyx Səfiəddin şiə məzhəbinə mənsub deyildi.[52] Çünki Həmdullah Qəzvini Ərdəbilin əhalisi haqqında deyir ki, "Əhalinin əksəriyyəti şafi məzhəbinə etiqad edir və şeyx Səfi əd-Dinin ardıcıllarıdırlar...[53]

Alman alimi Brokelman isə Səfəvilərin sonradan şiəliyi qəbul etdiyini bildirir və bu barədə yazır: "Səfinin nəvəsi Xoca Əli o qədər məşhur idi ki, Teymur Barzidə qələbə çaldıqdan sonra ona və övladlarına Ərdəbili ətrafındakı ərazi ilə hədiyyə etmişdi... Şeyx özünü xəlifə yaxud vəkil ilə təmsil etdirirdi. Getdikcə şiəliyi yayırdı.[54] Fransız İslamşunası Anri Masse də bu fikirdə olub şeyx Səfiəddini nəzərdə tutaraq qeyd edir ki, "onun nəvəsi şiələrə qoşulmuşdu".[55] Digər fransız alimi İren Melikofa isə qeyd edir ki, Səfəvilər sünni idilər, sonradan şeyx Cüneyd şiəliyi qəbul etmiş və yaymağa başlamışdır.[56] Türk alimi Şapolyo da Şeyx Xoca Əlinin çox məşhur olduğunu Osmanlıların ona hədiyyələr göndərdiyini, minlərlə adamın Ərdəbil təkkəsinə ziyarətə getdiklərini, Teymurləngin Osmanlı dövləti üzərində qələbə çaldıqdan sonra Səmərqəndə dönərkən Ərdəbilə gəlib Xoca Əlini ziyarət etdiyini və şeyxə bir çox vəqflər[57] hədiyyə etdiyini qeyd edərək şiəliyin bu şeyxin zamanında Anadoluda yayılması barəsində yazır: "Teymurləng Səmərqəndə apardığı otuz min türk əsirini Şiə şeyxi Xoca Əlinin tövsiyəsilə azad etmişdi. Elə bu zaman şiəlik Anadoluya yayıldı"[58].

Digər türk alimi Faruk Sümerin fikrincə şiəlik İrana Anadoludan gəlmişdir. Şiəliyi gətirənlər də Səfəvi dövlətini quran və Qızılbaş adlandırılan Analodu türkləridir.[59]

Bu xüsusda Eyyuboğlu qeyd edir ki, 12 imama sitayişə dayanan şiəlik Səfiəddin, onun oğlu və nəvələrincə yaradılmış və Anadolunun müxtəlif bölgələrində Ələvi-Qızılbaş adlanan topluluqlar tərəfindən mənimsənilib yayılmışdır.[60]

Şiəliyin Anadoluda yayılmasında şeyx Cüneydin rolu böyük olmuşdur O, 1449-cu ildə Anadoluya getmiş, Qaraman bəyliyində, Toros dağlarında yaşayan varsaq türkmənləri arasında, İsgəndərunda, Samsunda və Diyarbəkirdə on il şiəliyi təbliğ etmişdir.[61]

Deməli, Səfəvilər əvvəlcə sünni məzhəbinə etiqad etmiş, sonralar şeyx Cüneydin vaxtında şiəliyi qəbul etmiş və yaymışlar.

Ümumiyyətlə, Qızılbaşlıq Səfəvilər tərəfindən yaradılmış və yayılmış və bütünlüklə sufiliyə bağlı bir təriqətdir. Qızılbaşlarda on iki imama böyük hörmət, Kərbəla şəhidlərinə bağlılıq, Əlinin düşmənlərinə lənət, yəni təbərra, Əhli Beyt dostlarına məhəbbət, yəni təvəlla Səfəvilərdən gəlmişdir. Təbərra və təvəlla Səfəvi təbliğatının əsasını təşkil etmişdir.[62]

Yuxarıda qeyd edildiyi kimi Qızılbaşlar Azərbaycanda vo Anadoluda yaşamış türkdilli tayfaların ittifaqı olmuşdur. “Səfəviyyə” sufi cəmiyyəti Qızılbaşların Azərbaycanda ideoloji və dini mərkəzi olmuşdur.

Faruk Sümer yazır: “...təriqətin başı Azərbaycandakı Ərdəbil şəhərində, gövdəsi də Anadoluda idi. İranda təriqətin çox az mənsubu var idi ki, bunlar da Ərdəbillilərdən, Qaraca dağ türklərindən, talışlardan, Arandakı Qaramanlı və Qacar boylarından idilər. İranın digər heç bir yerində təriqət heç bir varlıq göstərməmişdir”.[63]

Şeyx İsmayıl şah olduqdan sonra onun qurmuş oduğu dövlətin adı Səfəvi dövləti adlandırılmağa başladı. Artıq Səfəvilik cəmiyyət çərçivəsindən çıxıb dövlət səviyyəsinə yüksəldi və bu səbəbdən cəmiyyət olaraq tarix səhnəsindən getdi. Onun yerinə Qızılbaşlıq adı tarix səhnəsinə gəldi. Mehmed Solakzadə yazır: “... Şah İsmayıl Təbrizdə səltənət mülkünün taxtına oturdu. Özünə də şah adını götürdü. Əsgərlərinə qırmızı çuxalardan taclar geydirdi. Qızılbaş adı ilə şöhrət və şan qazanmalarına vəsilə oldu.”[64]

Bəzi yazılarda Türkiyədə yaşayan şiələri ümumiləşdirilmiş bir ad olaraq ələvi adlandırırlar, bəzilərində ələvi və şiə təriqətlər terminlərinə rast gəlirik və bu zaman Qızılbaşlıq və Bəktaşilik ələvi təriqəti, Hürufilik isə şiə təriqəti olaraq göstərilir və s. Bu barədə İren Melikoffa yazır ki, elmi nöqteyi-nəzərdən Ələvi sözü yanlışdır və Ələvilərin tarixdəki adı Qızılbaşdır. XV və XVI əsrlərdə Qızılbaşlar şeyx Cüneyd, şeyx Heydər və Şah İsmayıl tərəfdarı olan türkmən boyları idilər. Qırmızı bir baş örtüyü geyirdilər, buna görə də onlara Qızılbaş deyirdilər. Ancaq əsrlər boyunca Qızılbaş sözü kiçildici bir anlayışa çevrilmiş, “dinsiz, üsyankar” mənasında işlənmişdir. Qızılbaş yerinə Ələvi sözü yaranmışdır.[65]

Qızılbaşlıq təriqətinin formalaşmasında Əhiliyin təsiri olmuşdur. Belə ki, “Səfəviyyə” cəmiyyəti əsasən oturaq əhalini, yəni sənətkarları və kəndliləri birləşdirirdi. Bu xüsusda İ.P.Petruşevski qeyd edir ki, Səfəvi-Qızılbaş hərəkatının tarixinə dair mənbələrin ən başlıcası şeyx Səfiəddinin həyatına həsr olunmuş “Səfvat əs-Səfa” ya görə (“Təmizliyin təmizliyi”, fars dilində”) şeyx Səfiəddin Ərdəbili, Xalxal, Pişkin, Muğan, Talış, Marağa və digər yerlərdə zərgərlər, çəkməçilər, çörəkbişirənlər, dəriçilər, dərzilər, digər sənətkarlar və tacirlər arasından çoxsaylı müridləri var idi. Monqol ilxanı Arqun-xanın hakimiyyəti zamanı Şirvanşah Axsaqan II (1284-1291) şeyx Zahid Gilanini şirvanşahın rəiyyətini torpaq işlərindən iyrəndirdiyi üçün günahlandırırdı və şeyxin Muğandakı zaviyəsini dağıtmaqla, müridlərini isə suda boğmaqla hədələyirdi.[66] Bununla yanaşı şeyx Cüneyd və şeyx Heydər zamanında Səfəvilər artıq özlərinin silahlı dəstələrini yaratmışdılar ki, bu da Əhiliyə aid xüsusiyyət idi.

Qızılbaşlığın formalaşmasında mühüm rol Hürufilərə məxsusdur. Şah İsmayıl Xətainin ədəbi-fəlsəfi irsində Nəsiminin böyük təsiri olmuşdur. Bunun iki səbəbi vardır. Birincisi odur ki, Xətai Nəsiminin şəxsiyyətinə, onun yaradıcılığına böyük hörmət bəsləmiş, şairin faciəli həyatı və ölümü onda dərin iz buraxmışdır.

İkincisi, Xətai öz fikirlərini həyata keçirmək üçün hürufiliyi şiəliklə birləşdirməyə çalışırdı.[67]

Dünyagorüşünə görə Xətai idealist idi, Allaha inanırdı. Onun əsərlərində dini-mistik əhval-ruhiyyə hiss olunur. Bu barədə V.F.Minorski yazır: "Yalnız" "Divan", ilk Səfəvilərin sirli bidətinə açar ola bilər. Bu dinamik, zahirən mistik və dini ideyalar bilavasitə fəaliyyətdə asanlıqla öz ifadəsini tapır. Onlar hərəkatın zərbə qüvvəsini təşkil edən həmin ünsürlərin siyasi xəttini təmsil edirlər".[68] Dini-mistik motivlərlə yanaşı hürufi görüşləri də vardır. Allahın insanda təzahür etməsi və deməli insanın yaradan və yaradılan olması düşüncəsi Xətai yaradıcılığında öz ifadəsini tapmışdır. Deməli insanı sevmək və onun xoşbəxtliyi uğrunda mübarizə aparmaq lazımdır.[69]

Qızılbaş nəzəriyyəsi Xətainin "Divan"ında öz əksini tapmışdır. Buna görə Xəlifə Əli allahdır və kim bunu qəbul etmirsə o, kafirdir.

Məhəmməd yalnız peyğəmbərdir, Əli isə "Allahın təcəssümüdür" ("məzhər-i həqq"dir). İsmayıl özünün Əli və Fatimədən başlayan "mənşəyi" ilə fəxr edir. O Əlidə ilahi mahiyyətin başqa şəklə düşdüyünə inanır. Əvvəlcə o, İsmayıl allahla (Əli ilə) bir olmuş, indi isə yenidən zühur etmişdir. Peyğəmbərin və imamın keyfiyyətləri onun simasında təcəssüm etmişdir. İnsan allahın təcəssümü ola bilər. İsmayıl - insan qiyafəsində olan allahdır ("adam donuna girmiş Xoda") o, bu dünyaya "Allahın nuru", "peyğəmbərin möhürü", "kamil mürşid", "aparıcı imam", mütləq həqiqət - allah (həqq-i mütləq) kimi gəlmişdir.[70]

Nəsimi və Nəvai kimi o da öz əsərlərində insanı, onun yaxşı keyfiyyətlərini, arzularını, istəklərini, habelə məhəbbəti, gözəlliyi və təbiəti qiymətləndirmiş və tərənnüm etmişdir. Humanist və insana məhəbbət fikirlərinə biz Xəqani və Nizaminin, habelə Firdovsi, Rudaki, Xəyyam, Sədi, Hafiz və Şərqin digər dahilərinin əsərlərində də rast gəlirik.[71]

Qızılbaşlar şah İsmayılı çox sevir, onu ilahiləşdirirdilər. O, xalq içərisində böyük şöhrət qazanmışdı. Şah İsmayıla xilaskar, İmam, Mehdi kimi baxırdılar.[72] Əbəs yerə deyil ki, Şah İsmayılın müasiri olmuş dahi şairimiz Məhəmməd Füzuli özünün ilk böyük əsəri "Bəngu Badə"ni ona ithaf etmişdir. Həmin əsərdə Şah İsmayıla əmin-amanlığı təmin etməsinə, abadlıq işləri aparmasına, elmə, mədəniyyətə və sənətkarlığa hörmət və ehtiram bəslənməsinə görə, türk dilinin qayğısına qalmasına və bu dildə gözəl şerlər yaratmasına görə qiymət verilmişdir.[73]

XVI əsrin əvvəllərində Qızılbaşlıq Bəktaşiliyə daxil olan son cərəyan oldu. Qızılbaşlıq Bəktaşilikdə sönməz iz buraxdı. Qızılbaşlıq təlimi Bəktaşi mərasimlərinə böyük təsir göstərdi. Bəktaşilik qeyri-ortodoks şəkil aldı və "Şiə təsiri Bəktaşi təlimi və mərasimlərinə dərin damğasını vurdu".[74]

Məsələn, əsas Bəktaşi-Ələvi mərasimi olan Ayini Cəmdə Qızılbaş təsiri ondadır ki, mərasim Xətainin üç nəfəsi ilə başlayır. Bundan başqa zəngin Bəktaşi - Ələvi ədəbiyyatında əsas yeddi böyük şair qeyd olunur: Nəsimi, Xətai, Füzuli, Pir Sultan Abdal, Qul Himmət, Yəmini və Virani.[75]

Bəzi yazarlar, o cümlədən də alman Dierl qeyd edirlər ki, Qızılbaşlar ideoloji və dini baxımdan Anadolu Ələvi-Bəktaşiliyinin Azərbaycandakı qoludur.[76] Yuxarıda yazılanlardan aydın olur ki, Qızılbaşlıq müstəqil bir dini-siyasi cərəyan olaraq Azərbaycanda yaranmış, inkişaf edərək, genişləyərək Anadoluya da yayılmış və orada özünün çoxlu tərəfdarlarını tapmışdır.

Beləliklə Qızılbaşlıq türkdilli tayfaların ittifaqı şəklində yaranmış, onun ideoloji mərkəzi Azərbaycandakı "Səfəviyyə" sufi cəmiyyəti olmuşdur. Səfəvi dövləti qurulduqdan və cəmiyyətin ideologiyası dövlət səviyyəsinə yüksəldikdən sonra "Səfəviyyə" cəmiyyətinin fəaliyyətinə ehtiyac qalmamış, onun fəaliyyət göstərmiş olduğu Ərdəbil şəhərindəki təkkə pir-ziyarətgaha çevrilmişdir.

## II Fəsil

## Qızılbaş dövləti haqqında

XV əsrin ikinci yarısında Səfəvilər fəal siyasi hərəkətə keçdilər. Şeyx Cüneyd 1449-1459-cü illərdə Kiçik Asiyada və Şimali Suriyada sufi-şiəliyə dayanan təriqətini qəbul edib ətrafına çoxlu tərəfdar yığaraq qarşısına dövlət qurmağı məqsəd qoymuşdu. O, Diyarbəkirdə ikən Ağqoyunlu hökmdarı Uzun Həsənin bacısı ilə evlənir və beləliklə Ağqoyunluların müttəfiqinə çevrilir. Şeyx Cüneyd 1459-cu ildə silahlı dəstəsi ilə Ərdəbilə gəlir, amma Ərdəbil hakimi olan əmisi şeyx Cəfər tərəfindən şəhərə buraxılmır. Şeyx Cəfər məzhəbcə sünni və Qaraqoyunlu tərəfdarı idi. Şeyx Cüneyd Dağıstana və Şirvana yürüş təşkil edir. 1460-cı ildə Samur çayı ətrafında Şirvanşah qoşunu ilə döyüşdə məğlub olur və öldürülür.

Şeyx Cüneydin oğlu şeyx Heydər atası kimi dövlət qurmağı hədəfləyir. Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı ilə evlənərək ağqoyunlularla olan müttəfiqliyini möhkəmlədir. O, təriqət başçıcı kimi yox, daha çox hərbi rəhbər kimi fəaliyyət göstərir. Şeyx Heydər özü mərd və cəsur döyüşçü, mahir silah ustası idi. Ətrafındakı müridlərini silahlandıraraq onları ayırmaq üçün on iki qırmızı zolaqlı baş örtüyü geyindirdi və tarixə Qızılbaşlar adını həkk etdirmiş oldu. 1488-ci ildə Şirvanşah qoşunu ilə döyüşdə Qızılbaşlar məğlub olur. Şeyx Heydər isə öldürülür.[77]

Şeyx Heydərin böyük oğlu Sultanəli atasının işini davam etdirir və həlak olmazdan əvvəl qardaşı İsmayılı təriqət şeyxi vəzifəsinə varis təyin edir. 1494-cü ildə Qızılbaşlar Ərdəbil yaxınlığında Şamasi adlı yerdə ağqoyunlulara məğlub olur və Sultanəli öldürülür. Sədaqətli Qızılbaşlar şeyx İsmayılı və qardaşı İbrahimi Ərdəbildə gizlədir[78], sonra Rəştə,[79] daha sonra isə Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Gərkiyə Mirzə Əlinin yanına gətirirlər.[80] O, qonaqlarına böyük hörmət göstərir, tanınmış yerli alimlərdən olan Şəmsəddin Lahicini ərəb və fars

dillərini öyrətmək, Quranı oxumaq üçün İsmayılın və qardaşının tərbiyəçisi təyin edir.

Şeyx İsmayıl Lahicanda təqribən 6 il qalır. Bu həddi-buluğa çatmaq və yeni çıxışa hazırlaşmaq üçün zəruri idi. Bütün məsələləri həll edən Qızılbaş əmirlərinin hesablamalarına görə, Ağqoyunlu şahzadələri arasındakı ara müharibələri və onların dövlətinin dağılması Şeyx İsmayılın qalibiyyətli yürüşünü asanlaşdırmalı idi. Lahicana, Şeyx İsmayılın yanına ona sadiqliyini bildirmək üçün Rum, Qaracadağ və Əhərdən çoxlu tərəfdarlar gəlirdi.[81]

1499-cu ilin avqustunda, şeyx Heydərin on üç yaşlı oğlu Lahicandan Ərdəbilə yola düşəndə onu yeddi nəfərdən ibarət ən yaxın şəxslər müşayiət edirdi; Hüseyn bəy Lələ Şamlı, Əbdüləli bəy Dədə (Dədə bəy), Xadim bəy Xüləfa, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Ayqut oğlu Xunuslu və Qarapiri bəy Qacar. Onlar Deyləmdən keçib Taroma gəldilər. Artıq Taromda Qıızılbaşların sayı 1500 nəfər idi. Oradan Qızılbaşlar Ərdəbilin cənub-qərbində yerləşən Xalxal tərəfə irəlilədikdən sonra qışı keçirmok üçün Xəzər dənizi yaxınlığında, Astara ərazisindəki Ərcuvan adlı yerə gəldilər.[82]

1500-cü ilin yazında şeyx İsmayıl Ərcuvandan Araz çayının şimalındakı dağlıq rayona, Göyçə gölünün cənub sahillərinə doğru hərəkət etdi.

Burada Qızılbaşlara ərəşli və zülqədərli tayfaları qoşuldular.[83]

Beləliklə, şeyx İsmayıl Azərbaycandan Kiçik Asiyaya keçənə qədər Qızılbaşlar şamlı, rumlu, ərəşli, zülqədərli tayfaları, Qaradağ, Əhər və Talış sufiləri ilə təmsil olunurdular. Bu zaman onların sayı, dəqiq məlum olmasa da, güman etmək olar ki, artıq bir neçə min nəfər idi.

Qızılbaşlar 1500-cü ilin yayında Ərzincana gəlirlər. Həmin ilin payızında Şeyx İsmayılın ətrafında artıq türkdilli şamlı, ustaclı, rumlu, təkəli, zülqədərli, əfşar, qacar, varsaq tayfalarından, Qaradağ sufilərindən ibarət 7000 qazi toplanmışdı.[84]

1500-cü ilin sonunda Qızılbaşlar Şirvana hücüm edib, Şirvanşah qoşununu məğlubiyyətə uğradaraq Şamaxını,[85] 1501-ci ilin yazında isə Bakını tutdular[86]. 1501-ci ilin payızında Qızılbaşlar Naxçıvanda, Şərur düzündə ağqoyunluları məğlub edib təntənə ilə Təbrizə daxil olaraq şeyx İsmayılı şah elan etdilər.[87]

1503-cü ildə Qızılbaşlar Şirazı, sonra İsfahanı, Kaşanı və Qumu tutdular. 1508-ci ildə bütün İran (Xorasan istisna olmaqla), Ermənistan və İraqi-Ərəb Qıızılbaşların əlində idi[88].

Şeyx İsmayılın başçılığında Qızılbaş hərəkatı Səfəvilərin əvvəlki çıxışlarından fərqlənrdi. Bununla əlaqədar İ. P. Petruşevski yazırdı: "Əgər Şeyx Heydər yalnız Azərbaycanı birləşdirməyi öz qarşısına məqsəd qoymuşdusa, İsmayılın müridlərinin və tərəfdarlarının məhz qonşu ölkələrdə fəal çıxışları onun qarşısında daha geniş vəzifələr qoydu. O, Azərbaycanı birləşdirdi (1502-ci il üçün) voə öz hüdudlarına bir sıra ölkələri də daxil edə biləcək böyük şiə dövləti

yaratmağa səy göstərən məsləkdaşlarının arzularını da yerinə yetirməyə məcbur oldu[89].

Qızılbaş dövləti Osmanlı imperiyası üçün böyük təhlükəyə çevrildi. Osmanlı sultanı şah İsmayılla müharibəyə başlamazdan əvvəl Anadolu şiələrini amansızcasına qırdırmağa başladı[90]. Osmanlılar ilə Qızılbaşlar arasında Çaldıran vuruşması 1514-cü ilin avqust ayının 23-də baş verdi və Osmanlıların qələbəsi ilə qurtardı. Qızılbaşların məğlub olmasının əsas səbəbi onların demək olar ki, artilleriyasının olmaması idi. Bu savaşdan sonra onsuz da Qızılbaşların hakimiyyətinə ürəksiz münasibət bəsləyən kürd tayfaları Qızılbaşlara qarşı çıxmağa başladılar və bunun əsas səbəbi də onların sünni məzhəbinə mənsubluğu idi[91].

Görkəmli dövlət və dini rəhbər olan Şah İsmayıl müxtəlif xalqları birləşdirən mərkəzləşdirilmiş Qızılbaş dövləti qurdu. 1524-cü il may ayının 23-də 37 yaşında qəfildən öldükdən sonra mərkəzi hakimiyyət zəiflədi və tayfa başçıları arasında ara müharibələri başladı.

O, vəfat etdikdən sonra oğlu Təhmasib Mirzə formal olaraq şah elan edildi. Amma on yaşında olan şah Qızılbaş tayfa əmirlərinin əlində oyuncağa çevrildi. Tayfalar arasında ara müharibələri on il davam etdi. Bu vaxt ərzində Şah Təhmasib artıq böyüyüb, dövləti özü idarə etməyə və möhkəmlətməyə başladı.

I Şah Təhmasibin dövründə Osmanlı sultan Süleyman Qızılbaş dövləti üzərinə dörd dəfə yürüş etmişdir. Əvvəlcə, 1534-cü ildə Osmanlılar hücum edərək Təbrizi tutdular. Amma orada möhkəmlənə bilməyib həmin ilin sonunda Bağdada çəkildilər[92].

1535-ci ilin yayında Sultan Süleyman ikinci dəfə hücum edərək Təbrizi tutdu. Amma yenə möhkəmlənə bilməyib təkrar geri çəkildi[93].

1548-ci ildə Sultan Süleyman üçüncü dəfə Qızılbaşlar üzərinə hərəkət edərək Təbrizi tutdu, cəmisi 4 gün qala bildi. Yenə də Qızılbaşların inadlı müqavimətinə davam gətirməyib geri çəkildi[94].

1554-cü ildə Sultan Süleyman dördüncü dəfə Qızılbaşlara hücum edib Naxçıvanı tutdu. Amma Qızılbaşların ardı-arası kəsilməyən hücumları ucbatından Ərzuruma geri çəkildi[95].

Sultan Süleymanın Qızılbaşlara qarşı aparmış olduğu dörd müharibədə müvəffəqiyyət qazanmamasının səbəbi I Şah Təhmasibin taktikası idi. Qızılbaşlar düşmənin başlıca qüvvələri ilə toqquşmadan çəkinir, qoşunların hərəkət edəcəyi yollara həmlələr edir, ərzaq ehtiyatlarını məhv edir, içməli su mənbələrini torpaqla doldurur, buğda və digər dənli bitki əkinlərinə od vururdular. Qızılbaşlar Osmanlı qoşununa qəfil basqınlar edir, ayrı-ayrı dəstələrini məhv edirdilər. Buna görə də Osmanlılar hər dəfə qısa müddət qalır və geri dönməyə məcbur olurdular. Onlar geri çəkilən Osmanlı ordusunun ardınca gedir, onu itkilərə məruz edir, izləyərək Osmanlı ərazisinə daxil olurdular.

Qızılbaşlar qərbdən bütün Avropanı lərzəyə salmış dövrünün ən güclü dövləti olan Osmanlı imperiyasının, şərqdən isə Orta Asiyanın Şeybanilər dövlətinin ardı-arası kəsilməyən hücumlarına məruz qalmışdı. Qızılbaşlara qarşı mübarizədə Osmanlı imperiyası və Şeybanilər dövləti müttəfiq idilər. Onların mübarizəsi dini düşmənçilik xarakteri daşıyırdı. Hər ikisi sünni dövləti idi. Sünni ruhanilərin dini fanatizmi Qızılbaş şiəliyinə qarşı öz dövlətlərini müharibələrə sövq edirdi[96].

1576-cı ildə I Şah Təhmasib vəfat etdikdən[97] sonra əvvəlcə Şah II İsmayıl (1576-1577)[98], sonra isə Məhəmməd Xudabəndə (1578-1587)[99] şahlıq taxtına oturdular. Bu dövrdə Qızılbaşlar arasındakı daxili çəkişmələr, Osmanlıların və onların vassalı olan Krım xanlarının Qızılbaş dövləti üzərinə qərbdən və şimaldan, Orta Asiyanın özbək hökmdarlarının isə şərqdən ardı-arası kəsilməyən hücumları dövləti tənəzzülə uğratdı. Bunun nəticəsidir ki, 1590-cı ildə Osmanlılarla qızılbaşlar arasında bağlanmış sülh müqaviləsinə görə Azərbaycan, Ermənistan, Gürcüstan, İranın qərb vilayətləri (Nəhavənd, Luristan, Şəhrizur) Osmanlı imperiyasının tərkibinə keçdi[100].

Qızılbaş dövlətində hakimiyyət strukturunda aşağıdakı təbəqələr var idi: Şah və hakim sülalənin üzvləri; yarımköçəri qızılbaş tayfalarının əyanları; şiə ruhaniləri; mülki bürokratiyanın yuxarı təbəqəsi; oturaq əyanlar. Səfəvilərin əcdadları əski zamanlardan Ərdəbildə və onun ətrafında yaşayır, əkinçilik və ticarətlə məşğul olurdular. Səfəvilərin doğma dili Azərbaycan türkcəsi idi.

Dövlətdə siyasi və hərbi hakimiyyətin tam sahibi qızılbaş tayfalarının əyanları idilər. Səfəvilər dövlətinin tərkibinə daxil olan bütün əyalətlərdə Qızılbaş əyanları imtiyazlı, hakim mövqeyə malik idilər.

Qızılbaş tayfaları və onların əyanları öz xidmətlərinə görə şahdan oturaq kəndlilərin sakin olduğu geniş torpaq sahələri alırdılar. Bu torpaqlara nəzəri cəhətdən şah hökuməti dövlət mülkiyyəti kimi yanaşırdı. Lakin onları əməli olaraq iri torpaq sahibləri olan Qızılbaş tayfalarının əyanları idarə edirdilər.

XV əsrdə Səfəvilərin dayağına çevrilmiş Qızılbaş tayfaları da həmçinin türkdilli idilər vo doğma dil kimi Azərbaycan türkcəsindən istifadə edirdilər. XV-XVI əsrlərin qovuşuğunda Qızılbaş tayfaları şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar və zülqədərli tayfalarına bölünmüşdülər. Səfəvi dövləti genişləndikcə bu tayfalara xeyli türkdilli tayfa və nəsillər qoşuldular[101].

İranlı Don Xuan adı ilə tanınmış Oruc bəy Bayat öz əsərində Qızılbaş tayfalarının və onların şaxələrinin daha tam siyahısını verir; 1) ustaclı, 2) şamlı, 3) əfşar, 4) türkman, 5) bayat, 6) təkəli, 7) xarmandalı, 8) zülqədər, 9) qacar, 10) qaramanlı, 11) bayburtlu, 12) ispirli, 13) oryad, 14) çavuşlu, 15) asayişoğlu, 16) Camış gözəkli, 17) sarızolaqlı, 18) qarabacaqlı, 19) baharlı, 20) qırxlı, yaxud qoruqlu, 21) bozcalı, 22) Mahi fəqihli, 23) həmzəli, 24) zolaqlı, 25) mahmudlu, 26) qara çomaqlı, 27) qara qoyunlu, 28) gözü bayızlı, 29) inanlı, 30) Kuh giluyelu[102].

Qızılbaş dövlətində yüksək təbəqəyə mənsub olanların bir qrupu da ali şiə ruhaniləri idilər Bunlara Şeyxülislamlar, qazilər, cümə məscidlərinin imamları, vaizlər, çoxsaylı vəqf işləri müdirləri və s. daxil idilər. Ruhanilər türklərlə, farslarla, qismən də ərəblərlə təmsil olunurdu.

Yükcək təbəqəyə mənsub olanların içində Qarabağda, Şirvanda, Azərbaycanın cənub vilayətlərində yaşayan yarımköçəri əyanlar, habelə vilayətlərdə olan əyalət inzibati aparatının daha iri nümayəndələri var idi.

Farslar (yaxud mənbələrdə adlandırıldıqları kimi "taciklər") Qızılbaş dövlətində asılı, tabe mövqe tuturdular. Bu barədə tarixçi İsgəndər bəy Münşi xəbər verir: "Sarayda taciklər sinfinə (təbəqə-i tacikiyyə) mənsub olan başqa əyanlar qrupu (əkbər və əyan) var idi. Onlardan bəziləri qulluq etməyə çalışırdılar (rahi xidmət dahtənd). Onlar bir o qədər mühüm vəzifələr tutmasalar da, dövlət şurasında (cənnət məclisində) müşavirlər kimi çıxış edir və ( müzakirələrdə) iştirak etmələri ilə diqqəti cəlb edirdilər"[104]. Venetsiyalı Alessandro isə saraydakı farslar haqqında yazırdı: "Baş müşavirlər (dövlət şurasında) səs verə bilməzlər və şah onları dəvət etməyincə öz fikirlərini eöyləməyə ixtiyarları yoxdur: onlar yüksək ixtiyar sahibi olsalar da Sultanların dərəcəsinə qalxa bilmirlər. Hətta əyan mənşəli olsalar belə, hərbi xidmətə dair təyinatlar ala bilmirlər".

Qızılbaş əyanları farslara (taciklərə) xor baxır, onlara yuxarı dövlət vəzifələri tutmağa, müstəsna dərəcədə türklərə aid olan hərbi işlərə qarışmağa layiq olmayan, aşağı təbəqə nümayəndələri kimi yanaşırdılar[105].

1587-ci ildə Şah Abbas hakimiyyətə gəldikdən sonra dövlətin paytaxtı İsfahana köçürüldü. Hərbi islahat nəticəsində müxtəlif qoşun növü yaradıldı, Qızılbaşların mövqeyi xeyli zəiflədi. Dövlətdə iranlıların rolu getdikcə artmağa başladı. 1736-cı ildə Nadir Şahın hakimiyyətə gəlməsi ilə Səfəvi sülaləsinin hakimiyyətinə son qoyulmuş oldu.

## III Fəsil

## MÜASİR DÖVRDƏ QIZILBAŞLIQ

Qızılbaşlığın dövrümüzə qədər gəlib çıxdığını, bu təriqətin yaşadığını anlamaq üçün çox maraqlı bir faktı göstərmək istəyirik.

Türkiyədə milli azadlıq hərəkatının başlanğıcında 1919-cu il dekabr ayının 18-də Atatürk Ərzurum və Sivas konqreslərindən sonra Sivasdan Ankaraya yola düşür, ertəsi gün o Qaysəriyə gəlir və Hacı Bəktaşi Vəli pirinə getməyi qərara alır. Çünki Qızılbaş və Bəktaşilərin Orta Anadoluda nüfuzu çox böyük idi. Dekabr ayının 23-24-də Atatürk qızılbaşların Çələbici Cəmaləddin əfəndi və Hacı Bəktaşi Vəli pirinin Dədə vəzifəsini yerinə yetirən Salih Niyazi Baba ilə görüşmüşdür. Bu görüşün nəticəsində Qızılbaşlar milli mübarizədə müştərək hərəkət edəcəklərinə söz vermişdilər. 1920-ci il aprel ayının 23-də Böyük Millət Məclisi açıldığında

Çələbi Cəmaləddin əfəndi Qırşexirdən millət vəkili seçilmiş və eyni zamanda Məclisin sədr müavini olmuşdur[106].

Yuxarıda qeyd olunan Çələbi sözü türk terminidir. Kiçik Asiya Yürüklərində "Allah" mənasındadır. Azərbaycan şairi Qasım Ənvərə görə, Çələbi sözünün sufilikdə mənası "sevgili", yəni "allah" deməkdir[107].

Hal-hazırda Anadoluda Qırşexir, Ankara, Sivas, Diyarbəkir, Ərzurum, Kars, Antalya, İzmir, Manisa, Kütaxya, Balıqəsirdə Qızılbaş kəndləri vardır. Ümumiyyətlə isə, Qızılbaşlara Türkiyənin hər bir yerində rast gəlmək mümkündür.

Orta Anadolu Qızılbaşları Hacı Bəktaşi Vəli-Çələbi ocağına, Qızılbaşların bir qolu olan Taxtacılar İzmirin Narlıdərə kəndindəki Yanın Yatır ocağına, Aydında olan Qızılbaşlar isə Hacı Əmir ocağına bağlıdırlar. Qızılbaşların böyük bir piri də Ankaranın Həsən dədə kəndindəki eyni adlı bir pirdir[108].

Taxtacılar Qızılbaşların qolu olub Yürük türkmənləridir. Bunlar köçəri həyat tərzi keçirirlər. Meşə təsərrüfatı ilə məşğul olduqlarından taxtacı adlandırılırlar[109].

Anadolu Qızılbaşları demokrat ruhlu və yüksək əxlaqlı insanlardır. Əski türkcə danışırlar, savadlıdırlar, cahil və qaba deyildirlər. Bir çox mahnılar, şerlər və əfsanələr bilirlər.

Qızılbaşların bir-birinə bağlılığı çox güclüdür. Onlar qeyri-türk millətindən qız almazlar, arvadlarını boşamazlar. Aralarında yoxsul yoxdur. İşləməyənləri işlə təmin edirlər. Heç kimə möhtac olmadan çalışaraq güzəranlarını təmin edirlər. Çox qonaqpərvərdirlər. Hədiyyə verməyi sevirlər. Etimad göstərdikləri qonağa qarşı dost münasibətləri bəslər, çox böyük hörmət edərlər[110].

Qızılbaşlarda oğurluq və qatillik ən böyük günahdır. "Əlinə, belinə, dilinə hakim olmaq" Qızılbaşlar arasında vacib olan şərtdir. Qızılbaşlıqda bir-birinə yalan söyləmək yoxdur. "Aşda və işdə bir olanlar" bir-birinə daima doğru söylərlər[111].

Bəzi mənbələrdə Türkiyədəki Qızılbaşların Əli-ilahi təriqətinə mənsub olduğu göstərilir Əli-ilahilər Əlini bütün peyğəmbərlərdən, o cümlədən Məhəmməd, İsa və Musadan üstün tuturlar və Əlini ilahiləşdirirlər[112].

Bu həqiqətə uyğun deyildir. Çünki Qızılbaşlar şiəliyin imamilik təriqətinə mənsubdurlar. Bu xüsusda Selaniki Mustafa Əfəndi yazır: "...xəbər gəldi ki, Allahın əmri ilə İran və Turan mülkünün taxtnişini Təhmasib şah əlli dörd il ərzində səltənətin hakimi, əhli sünnətin və camaatın düşməni, Qızılbaş məlunlara neçə müddət bidət üzrə şiəlik məzhəbinin isnə-əşəriyyə qoluna rəvan verəni Qəzvin şəhərində həlak oldu"[113].

İsna əşərilər, yəni "onikiimamilər" şiəliyin əsas qollarından biridir və Əli ibn Əbu Talib nəslindən olan on iki imamı qəbul edən imamilərdir[114].

Şapolyonun da qeyd etdiyi kimi Anadoludakı Qızılbaşlar Həzrəti Əlinin tərəfini qutaraq Ələvi olmuş və əhli beyti, yəni Məhəmməd peyğəmbərin nəslini tanımışlar[115].

Anadoludakı Qızılbaşları məscidləri olmadığına, Cəmlərində (toplandıqları yerlər) qadınların iştirak etməsinə, şam söndürmə adətinə və məclislərində spirtli içkilər olmasına görə tənqid edirlər. Qızılbaşlar məscidə getməmələrinin səbəbini belə izah edirlər ki, imam Əli məsciddə öldürüldüyündən onlar məscidə getmir və öz cəmlərində toplanırlar. Bunun başqa bir izahını isə öz nəfəslərində "Xalis müsəlmana məscid gərəkməz" deyə ifadə edirlər[116]. Şam söndürmə adəti Qızılbaşlarda heç olmamışdır. Guya şam söndürüb cinsi əlaqələrlə məşğul olmuşlar. Bu bir iftira olub Qızılbaşları ləkələyib xalqın gözündən salmaq məqsədi güdmüşdür. Cəmlərdə spirtli içki içilməsi məsələsi üzərində bir qədər durmaq istəyirik. Qızılbaşlıq təriqətində üç əsas vardır: 1-adama məhəbbət, 2-nura məhəbbət, 3-dəmə məhəbbət. Adama məhəbbət onunla əlaqədardır ki, insanlar Həzrəti Adəmin nəslindəndir, bir kökdəndir, sən və mən yoxdur, biz varıq. Ona görə də insanlar bir-birlərini sevməli və bir-birlərinə kömək etməlidirlər. Nura məhəbbət isə onunla bağlıdır ki, bütün kainatı Nur əhatə etmişdir, onun bir parçası da insan oğlunun ürəyindədir. Nur günəş olaraq görünür. Günəş də həyatın əsasıdır və Həzrəti Məhəmməd olaraq təzahür etmişdir[117]. Dəmə məhəbbət dedikdə insanın qanı, onun təmizliyi və əxlaqı nəzərdə tutulur.

Şapolyo dəmə məhəbbəti şəraba məhəbbət kimi qələmə verir və bildirir ki, Cəm mərasimlərində spirtli içkilər içilir[118], bu doğru deyildir. İren Melikofanın qeyd etdiyi kimi dolu içilməsi adəti Həzrəti Məhəmmədin, bəzən də imam Əlinin sıxmış olduğu üzüm suyu içilməsi adəti mənasındadır[119]. Ayinlərdə dəm olaraq şərbət içilirdi[120]. Cəmlərdə şərabın, ümumiyyətlə spirtli içkilərin içilməsi qeyri-mümkün idi. Spirtli içkilərin haramlığı haqqında Bəktaşiliyin qurucusu Hacı Bəktaşi Vəli yazmışdır: "Bir damla içki, bir quyuya damladığı üçün Allah adamının təsdiqinə görə o quyunun suyunu tam təmizləmək görəkmiş. O suyun töküldüyü yerdə bitən otu bir qoyun otladığı üçün əti haram oldu. Səbəb içində şeytan əməli olmasıdır[121].

Anadoluda Qızılbaşlar təriqətlərini, pirlərini günümüzə qədər qoruyub saxlamışlar.

Bolqarıstanda da hal-hazırda Qızılbaşlar yaşayır və öz adət və ənənələrini davam etdirirlər[122].

Azərbaycanda hal-hazırda mövcud olan imamilik şiə təriqətinin müasir müddəaları və mərasimləri XVI əsrin əvvəllərində ilk Səfəvi hökmdarı I Şah İsmayılın dövründə təşəkkül tapmışdır[123].

Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən şiələr üçün Qurandan sonra ən mötəbər dini ehkam və tövsiyə mənbəyini imam Əli və onun nəslindən olan imamların, xüsusilə də oğlu Hüseynin faciəli həyatı və siyasi-dini mövqeyi, habelə altıncı imam Cəfəri Sadiqin tərtib etdiyi dini-hüquqi prinsiplər toplusu təşkil edir[124].

Türkiyədə keçirilən Cəm mərasimlərinə bənzəri olaraq Azərbaycanın müxtəlif bölgələrində, əsasən də, Bakı kəndlərində Əli süfrələri verilir. "Əli

süfrəsi" mərasimləri adətən ayrı-ayrı şəxslərin evlərində yaxud da məscidlərdə verilir. Bu zaman kəndin bütün sakinləri dəvət olunur. İmam Əli adına qoyunlar kəsilir, 12 imam adına 12 xonça tutulur. İmam Əli şərəfinə dərvişlər tərəfindən mədhiyyələr, Xətayinin, Füzulinin, Nəsiminin şerləri oxunur. "Əli süfrəsi" mərasiminə gələnlər İmam Əli adına şirniyyat xonçaları gətirirlər. Əli adına plovlar bişirilir. Mərasimdə iştirak edənlər "Əli süfrəsində oturub yemək yeyir, gedərkən də hamıya İmam Əli adından şirniyyat payları verilir.

"Səfəviyyə cəmiyyəti şeyxlərinin və onların mürşidlərinin məzarları Azərbaycan ərazisindədir. Şeyx Səfinin ustadı şeyx Zahidin türbəsi Lənkəran rayonunun Şıxakəran kəndindədir. Əsli Gilandan olmuş, gilan dilində şer yazmış, ömrünün çox hissəsini Gilanda keçirmiş, sonra Azərbaycana gəlmiş şeyx Zahidin Muğan, Şirvan və Marağada çox sayda müridləri olmuş, 1300-1301-ci ildə vəfat etmiş və Şıxakəran kəndində dəfn olunmuşdur. O, 25 il şeyx Səfiəddinin mürşüdü olmuş, ölərkən yaratdığı dərviş cəmiyyətinin başçılığına öz oğlunu yox, kürəkəni və müridi Səfiəddini təyin etmişdir[125].

Lənkəran-Astara yolunun üstündə Pensar (Butasar) kəndi qəbristanlığında yerli camaat tərəfindən "Seyid Camaləddin" piri adlanan abidə vardır. Tarixi sənədlərdən məlum olduğuna görə o, Eynəzzaman Camaləddin Gilidir (Gilanlıdır) və şeyx Zahidin mürşüdü olmuşdur. Ömrünün çox hissəsini Astarada yaşayıb sufiliyi təbliğ etmiş və öz nəzəriyyəsini Şirvanda yaymaq üçün oğlu və müridi Seyid Sədullanı Bakıya göndərmişdir[126].

Səfəvi şeyxlərindən şiəliyi böyük sürətlə Anadoluda yayan, Səfəvilərin ilk silahlı dəstələrini yaradan və dövlət qurmağı hədəfləyən Şeyx Cüneydin türbəsi Qusar rayonunun Həzrə kəndindədir. O, 1460-cı ildə Şirvanşah I Xəlilullahın qoşunları ilə Samur çayı sahilində baş vermiş döyüşdə həlak olmuş, orada da Həzrə kəndində dəfn olunmuşdur. I Şah Təhmasib sonralar onun qəbri üzərində məscid-məqbərə binası tikdirmişdir[127].

Qızılbaşlığın yaradıcısı olan şeyx Heydərin də məqbərəsi Azərbaycanda, Xızı rayonunun Tıxlı kəndindən 3-4 km şimal-şərq tərəfdə Beşbarmaq dağının arxasındadır. 1488-ci ildə Şirvanşah-Ağqoyunlu qoşunları ilə döyüşdə həlak olmuş və orada da dəfn olunmuşdur. Sonralar Şah İsmayıl onun qəbrini axtarıb tapmış, üzərində türbə binası tikdirib orada Şıxlar kəndini saldırmış və məqbərəni müqəddəs ziyarətgah elan etmişdir. Məqbərə uzun illər fəaliyyət göstərməsinə, bərpa və təmir olunmasına baxmayaraq, sonralar dağıdılmış, lakin unudulmamışdır[128].

Səfəvilərin digər şeyxləri: Şeyx Səfiəddin, Şeyx Sədrəddin, Şeyx Xoca Əli, Şeyx İbrahimin və Qızılbaş təriqəti və dövlətinin qurucusu Şah İsmayıl Xətainin məzarları Cənubi Azərbaycanda, Qızılbaşlığın ideoloji mərkəzi olmuş Ərdəbildədir.

Azərbaycan ərazisində Bəktaşiliyin yayıldığını göstərən pirlər də mövcuddur. Məsələn, indiki Sabirabad rayonunun Şıxlar kəndindəki Baba Samit

pirini, Qızılburun yarımadasının 7 kilometrliyində yerləşən Xəlilbaba pirini göstərmək olar[129].

Bununla yanaşı Qax rayonunun Oncallı kəndindəki Oğuz qəbristanlığında Hacı Tapdıq və Şeyx Yunis piri mövcuddur. Şeyx Yunis böyük oğuz-türk şairi Yunis Əmrə, Hacı Tapdıq isə onun mürşüdü olmuşdur. Sonuncu isə Hacı Bəktaşi Vəlinin ən sevimli müridi idi. Halbuki Anadoluda Yunis Əmrənin 10-dan çox məzarı vardır. Bu pir əhali tərəfindən müqəddəs sayılan ziyarət yerlərindən biridir[130].

Sufi cəmiyyətlərinin Azərbaycanda yayılması, onların pirlərinin mövcudluğu Azərbaycan xalqı içərisində onlara böyük rəğbət bəsləndiyini sübut edir.

Azərbaycanda Qızılbaşlıq öz mövqelərini XVI əsrin sonlarından itirməyə başladı. Əvvəlcə Şah Abbas ölkənin paytaxtını İsfahana köçürdü. Orduda islahat nəticəsində Qızılbaşların siyasi və hərbi mövqeyi çox zəifləmiş oldu. Və bundan sonra dövlətdə fars ünsürü tədricən aparıcı rol oynamağa başladı, Qızılbaşlar isə dövlətdən uzaqlaşdırıldılar.

XIX əsrin əvvəllərindən isə Şimali Azərbaycan Rusiyanın əsarəti altına düşmüş, 1920-ci ildən 1990-cı ilə qədər də Sovet İttifaqının tərkibində olmuşdur. Əsasən son mərhələdə ateizmin çox güclü surətdə təbliği, məscidlər, pirlər, məqbərələr və digər dini ziyarət yerlərinin kütləvi surətdə bağlanması, əlbəttə ki, Azərbaycanda dinin vəziyyətinə çox böyük təsir göstərmişdir.

Buna baxmayaraq Qızılbaşlığın və Qızılbaş dövlətinin vətəni olan Azərbaycanda Qızılbaşlıq unudulmamışdır, çünki bu əqidə xalqın qəlbində və ürəyindədir.

## NƏTİCƏ

XV əsrin ikinci yarısında yaranmış olan Qızılbaşlıq bütün İslam dünyasını, o cümlədən türk dünyasını bürümüş sufiliyin əsasında yaranmışdır. Sufilik inkişaf etdikcə Qızılbaşlıq da, digər təriqətlər kimi ondan bəhrələnmiş, daha da zənginləşmişdir. Qızılbaşlığın kökləri "Səfəviyyə", o da "Zahidiyyə" cəmiyyətlərinə gedib çıxır ki, bunların da təriqət silsiləsində məşhur müsəlman ilahiyyatçısı və sufiliyin banilərindən sayılan Həsən əl-Bəsri, məşhur sufilər Məruf əl-Kərxi, Səri əs-Səqəti, Cüneyd Bağdadi, Əbu-n-Nəcib əs-Sührəvərdi, Qütbəddin əl-Əbhəri, şeyx İbrahim Zahidi, şeyx Səfiəddin və digərləri yer almışlardır.

"Zahidiyyə" və "Səfəviyyə" cəmiyyətləri Xəlvətilik və Bayramilik təriqətlərinə də öz təsirini göstərmiş, belə ki, bu təriqətlərin ideoloqları bir zamanlar qeyd olunmuş cəmiyyətlərin şeyxlərinin müridləri olmuşlar.

Qızılbaşlıq türkdilli tayfaların içərisində yaranmış, Mərkəzi Azərbaycanın Ərdəbil şəhərində olmuşdur. Qızılbaşlığın qurucuları millətcə türk olmuş, türk dilində danışmış, türk dilini ərəbcə və farscadan üstün tutmuşlar. Bu dil o zaman

Azərbaycan, İran, İraq və şərqi Anadoluda yaşayan türkdilli tayfaların əski türkcəsi, indiki Azərbaycan türkcəsinə daha yaxın türk dili idi.

Qızılbaşlar şiə məzhəbinə mənsubdurlar. Qızılbaşlarda imam Əliyə sitayiş, on iki imama pərəstiş təriqətin əsasını təşkil edir.

XV əsrin sonları və XVI əsrin lap əvvəllərində türkdilli tayfalar arasındakı çəkişmələrdən, ağır iqtisadi vəziyyətdən cana gəlmiş əhali şeyx İsmayıla imam Mehdi kimi xalqın mənafeyi uğrunda mübarizə aparan xilaskar kimi baxaraq sufi-şiəliyə dayanan Qızılbaşların arxasınca gedərək Qızılbaş dövlətini qurdular. İlk mərhələdə Qızılbaşlar Azərbaycanı birləşdirdilər, sonra isə Qızılbaşlıq təriqətinə mənsub olan türkdilli tayfaların yaşadığı İran, İraq, Ermənistan və şərqi Anadolunu da əhatə edən böyük bir dövlət qurdular. Amma Osmanlı imperiyası və Orta Asiyanın Şeybanilər dövləti dini düşmənçilik zəminində Qızılbaş dövləti üzərinə ardı-arası kəsilməyən hücumlar edir, Qızılbaşlara müharibələrdən baş açmağa aman vermirdilər. XVI əsrin sonunda Azərbaycan Osmanlı imperiyasının tərkibinə daxil edildi və bununla da Qızılbaş dövlətində aparıcı mövqeyini və rolunu itirdi. Şah Abbasın vaxtında isə, Qızılbaşların mövqeyi dövlətdə getdikcə zəiflədi. İran ünsürünün rolu isə tədricən artdı. 1736-cı ildə Nadir şahın hakimiyyətə gəlməsi ilə Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

Qızılbaşlar öz dövlətçiliyini itirsələr də, qızılbaşlıq tarixdən silinmədi. Günümüzdə də qızılbaşlıq Türkiyədə, Bolqarıstanda və İran Azərbaycanında mövcudluğunu davam etdirir.

# ƏDƏBİYYAT


1.Enver Behnan Sapolyo. Mezhebler ve tarikatlar tarihi. İstanbul, 1964. s. 254-255. İsmet Zeki Eyuboğlu. Günün İşığında Tasavvuf. Tarikatlar, Mezhebler tarihi. İstanbul, 1993. s. 354.

2. "Yeniçərilər" – Osmanlı imperiyasında daimi muzdlu piyada əsgəri hissə idi. 1361 yaxud 1363-cü ildə xristian hərbi əsirlərdən yaradılmışdı. Mənası yeni hərbi hissə deməkdir. Бах; А. Д. Новичев. Турция. Краткая история. Москва, 1965. стр. 15.

3. Prof. Dr. Faruk Sümer. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu. Ankara, 1992, s. 111.

4. Prof. Dr. İrene Melikoff. Uyur idik uyardılar. Alevilik-Bektaşilik araştırmaları. Türkcesi; Turan Alptekin. İstanbul. 1994, s. 57.

5. Abdulkadir Sezgin. Hacı Bektaşi Veli ve Bektaşilik, Ankara, 1990, s. 50-51.

6. C. Brockelman. İslam milletleri ve devletleri tarihi. 1.(1-3. Kisimlar). Çeviren; Prof. Dr. Neşet Caqatay. 2. Baskı. Ankara, 1964, s. 296.

7. И. П. Петрушевский. Ислам в Иране в VII-XV веках. Изд. ЛГУ, 1965, с. 367.

8. Дж. С. Тримингем. Суфийские ордены в Исламе. Москва, 1989, с. 88.

9. Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı. 1979, səh. 159.

10. İslam. Qısa məlumat kitabı. Bakı, 1989. səh. 128-129.

11. "--------", səh. 106-107.

12. Mevlana Halid-i Bağdadi. Herkese lazım olan iman. Tərcümə edən; Kemahli Feyzullah Efendi. Onbirinci baskı. İstanbul, 1992, s. 441.

13. "-------" s. 442.

14. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 256.

15. "--------", s. 298.

16. А. Е. Крымский. Низами и его современники. Баку, 1981. стр. 225.

17. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 23.

18. И. П. Петрушевский. Ислам в Иране в VII-XV вв. Изд. ЛГУ, 1965, səh. 304-307. 3. Кулизаде. Хуруфизм и его представители в Азербайджане, Баку, 1970.

19. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 39.

20. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 371.

21. А. Е. Крымский. Низами и его современники, стр. 225.

22. Enver Behnan Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 217.

23. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 38.

24. Sapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 350.

25. Ибригимов Д. Феодальные государства на территории Азербайджана в XV в. Баку, 1962, стр. 50-51.

26. Prof. Dr. Faruk Sümer. Safevi devletinin kuruluşu ve qelismesinde Anadolu türklerinin rolu. s. 1.
27. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, səh. 34.
28. К. Е. Босворт. Мусульманские династии. Справочник по хронологии и генеалогии. Наука, Москва, 1971, стр. 226.
29. Anri Masse. İslam. Bakı, 1992, səh. 215.
30. C. Brockelman. İslam milletleri ve devletleri tarihi, s. 294.
31. Бартолд. Сочинения. XI т. Москва, 1966, с. 54.
32. Д. М. Нагиева. Навои и азербайджанская литература. Ташкент. 1980, стр. 37.
33. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. səh. 31.
34. М. И. Шемси. Сочинение Шереф-хана Бидлиси "Шереф-наме" как источник по истории курдского народа. Автореферат дисс. на соискание уч. степени кан. ист. наук. Баку, 1967, с. 9.
35. М. Аббаслы. К вопросу о происхождении Сефевидов. Известия АН Азербайджанской ССР. Серия; литература, язык искусство, 1973, N-2, стр. 40.
36. И. П. Петрушевский. Ислам в Иране в VII-XV вв. с. 362.
37. “-------” s. 366.
38. Anton Jozef Dierl. Anadolu Aleviliği. Çeviren; Fahrettin Yiqit. Ant yayınları. İstanbul, 1991, s. 60.
39. Анри Массе. Ислам., с. 214.
40. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 452.
41. “-------” s. 481.
42. И. П. Петрушевский. Ислам в Иране в VII-XV вв. стр. 362.
43. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 172.
44. “-------” s. 177.
45. 3. А. Кулизаде. Из истории азербайджанской философии. VII-XVI вв. Азернешр, Баку, 1992, стр. 164.
46. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 121.
47. İsmet Zeki Eyuboğlu. Günün İşığında Tasavvuf. Tarikatlar, Mezhebler tarihi, s. 166.
48. Иззет Султан. Книга признаний Навои. Ташкент, 1979, стр. 41.
49. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и Алам-Ара-йи Амини. Елм, Баку, 1987, стр. 78.
50. О. А. Эфендиев. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Изд-во Академии наук Азербайджанской ССР, Баку, 1961, стр. 63.
51. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 350.
52. Бартолд. Сочинения. VII т. стр. 204.
53. Хамдуллах Казвини. Нузхат Ал-Кулуб. (Материалы по Азербайджану). Элм, Баку, 1983, стр. 44.

54. C. Brockelman. İslam milletleri ve devletleri tarihi, s. 295.
55. Анри Массе. Ислам, стр. 214.
56. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 130.
57. “Vəqf’ – dini və xeyriyyə məqsədi ilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü bağışladığı daşınar və daşınmaz əmlakdır”. (Бах: ASE, II cild, Balzam-Qaydar, 1978, səh. 457-458).
58. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 350.
59. Faruk Sümer. Safevi devletinin kuruluşu ve qelismesinde Anadolu türklerinin rolu, s. 1.
60. Eyuboğlu. Günün İşığında Tasavvuf. Tarikatlar, Mezhebler tarihi, s. 388.
61. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 351-352.
62. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 131.
63. Faruk Sümer. Safevi devletinin kuruluşu ve qelismesinde Anadolu türklerinin rolu, s. 12.
64. Mehmed Solakzade. Tarix (Azərbaycan tarixinə dair iqtibaslar). Türk dilindən tərcümə edəni akademik Z. Bünyadov. Bakı, 1992, səh. 20.
65. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 33.
66. И. П. Петрушевский. Ислам в Иране в VII-XV вв. стр. 362-363.
67. Д. М. Нагиева. Навои и азербайджанская литература. Ташкент, 1980, стр. 39-41.
68. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, səh. 47.
69. Д. М. Нагиева. Навои и азербайджанская литература, стр. 38.
70. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, səh. 47.
71. Д. М. Нагиева. Навои и азербайджанская литература, стр. 37-38.
72. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, səh. 48.
73. Əzizağa Məmmədov. Şah İsmayıl Xətai. Yazıçı, Bakı, 1988, səh. 27-28.
74. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 39.
75. “-------”, s. 39-40.
76. Anton Yozef Dierl. Anadolu Aleviliqi. s, 60.
77. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 352-354.
78. O. Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, s. 36.
79. “-------”, s. 36-37
80. “-------”, s. 37-38
81. “-------”, s. 38.
82. “-------”, s. 38-39.
83. “-------”, s. 39.
84. “-------”, s. 40.
85. “-------”, s. 40-41.
86. “-------”, s. 41-43.
87. “-------”, s. 44-45.
88. “-------”, s. 46.

89. “-------”, s. 46.
90. “-------”, s. 50.
91. “-------”, s.51-53.
92. “-------”, s. 65-66.
93. “-------”, s. 67.
94. “-------”, s. 74-75.
95. “-------”, s. 81-82.
96. “-------”, s. 87.
97. “-------”, s. 109.
98. “-------”, s. 118-126.
99. “-------”, s. 128.
100. “--------”, s. 179.
101. “--------”, s. 191-192.
102. “--------”, s. 192-193.
103. “--------”, s. 192-193.
104. “-------”, s. 197.
105. “-------”, s. 197.
106. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s.331-332.
107.Бартлод. Сочинения. Москва, 1968, т. V. стр. 611.
108. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 257-258.
109. “-------”, s. 288.
110. “-------”, s. 257-258
111.“-------”, s. 268.
112. Современная Турция (справочник). Москва. 1965, стр. 40-41. Беляев Е А. Мусульманское сектантство (исторические очерки). Москва, 1957, стр. 83.
113. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki. 1563-1600. (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar). Osmanlı türk dilindən tərcümə edən akademik Z. M. Bünyadov. Bakı. Elm. 1992. Səh. 9.
114. İslam; Tarix. Fəlsəfə. İbadətlər. Bakı, 1994, səh. 92.
115. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 255.
116. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 68.
117. Şapolyo. Mezhebler ve tarikatlar tarihi, s. 270.
118. “--------”, s. 270.
119. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 139.
120. Abdulkadir Sezgin. Hacı Bektaşi Veli ve Bektaşilik, Ankara, 1990, s. 76.
121. Hacı Bektaşi Veli. Makalat. Ankara, 1990, s. 6.
122. İrene Melikoff. Uyur idik uyardılar. Alevelik-Bektaşilik Araştırmaları, s. 139.
123. A. F. Əhədov. Azərbaycanda din və dini təsisatlar. Bakı, 1991, səh. 52.
124. “-------”, s. 50.
125. Məşədixanım Nemət. Azərbaycanda pirlər. Bakı, 1992, səh. 38-39.
126. “-------”, s. 37

127. “------”, s. 53-55.
128. “------”, s. 56-57.
129. “------”, s. 58-60.
130. “------”, s. 94-95.

Sadiq Firudin oğlu Nağıyev

“Qızılbaşlıq haqqında”

Bakı - 1997

(Azərbaycan dilində)

Yığılmağa verilib 01.05.97. Çapa imzalanıb 12.05.97.
Ofset kağızı N 1. Format 60x841/16
Tiraj 1000. Sifariş N 190.

“Əbiləv, Zeynalov və oğulları” istehsalat-ticarət kompaniyasının
icarə mətbəəsi
Gənclər meydanı, 1 tel. 92-69-05